Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

# ƏLİLLİYİ OLAN ŞƏXSLƏR
## Hüquqlar, İmtiyazlar, Güzəştlər

## BƏLƏDÇİ



“DEMOKRATİYANI ÖYRƏNMƏ” İCTİMAİ BİRLİYİ
BAKI - 2022

“Demokratiyanı Öyrənmə” İctimai Birliyi

Əlilliyi olan şəxslər: Hüquqlar, İmtiyazlar, Güzəştlər

*Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən icra edilən “Azərbaycanda həssas qrupların hüquqlarının müdafiəsi” layihəsi çərçivəsində “Demokratiyanı Öyrənmə” İctimai Birliyi tərəfindən həyata keçirilən “Əlilliyi olan şəxslərin hüquqlarının təşviqi və müdafiəsi” layihəsi çərçivəsində hazırlanmışdır. Bələdçinin müəllifi “Demokratiyanı Öyrənmə” İctimai Birliyidir. Bələdçidə istifadə edilən məzmun heç bir halda Avropa İttifaqı və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının mövqeyini əks etdirmir.*

# GİRİŞ

Birləşmiş Millətlər Təşkilatının ``İnsan hüquqları haqqında Ümümi Bəyannaməsi``ndə və digər beynəlxalq sənədlərdə hər bir insanın bütün hüquq və azadlıqlara hər hansı fərq qoyulmadan malik olması bəyan və təsbit edilmişdir. Əlilliyi olan bütün şəxslərin də heç bir ayrı-seçkiliyə yol verilmədən hüquq və azadlıqlardan tam istifadə edə bilməsi müasir inklüziv cəmiyyətin formalaşdırılmasının əsas şərtlərindən hesab edilir. Bu koteqoriyadan olan şəxslərin hüquqlarının və ləyaqətinin təşviqi və müdafiəsi haqqında hərtərəfli və vahid beynəlxalq sənəd – BMT-nin Baş Assambleyası tərəfindən 2006-cı il 13 dekabr tarixində qəbul edilmiş "Əlillərin hüquqları haqqında Konvensiya" onların bərabər səviyyədə mülki, siyasi, iqtisadi, sosial və mədəni həyatda iştirakının genişləndirilməsinə mühüm töhfədir. Beynəlxalq standartlar əsasında milli qanunvericilik sisteminin formalaşdırılması ilə ölkəmizdə bu şəxslərin hüquq və azadlıqlarının hüquqi təminatı daha da gücləndirilmişdir.

Qlobal və milli səviyyədə həyata keçirilən çoxsaylı tədbirlərə baxmayaraq, hələ də bütün dünyada olduğu kimi, ölkəmizdə də əlilliyi olan şəxslərin onların həyatına mənfi təsir göstərən müxtəlif xarakterli maneələrlə qarşılaşması və insan hüquqlarının pozulması halları mövcuddur. Əlillik əlamətinə görə istənilən şəxsə qarşı ayrı-seçkilik insan şəxsiyyətinə xas olan ləyaqətin və dəyərlərin alçaldılması deməkdir. Buna yol verməmək, bu cür halların aradan qaldırılması, həmçinin əlverişli hüquqi və fəaliyyət mühitinin formalaşması üçün onlara məxsus insan hüquqlarının təşviq edilməsi və müdafiə olunması vacibdir.

Qarşınızda olan bu vəsait məhz bu məqsədlə hazırlanmışdır. Hüquqi məlumatlılığın artırılması hüquqların həyata keçirilməsi və müdafiəsində ən səmərəli vasitələrindən biridir və bilavasitə əlilliyi olan şəxslərin hüquqi məlumatlılığının gücləndirilməsinə xidmət edən belə bir vəsaitin hazırlanmasını şərtləndirmişdir. Vəsaitin başlıca təyinatı aid olduğu şəxslərin qanunvericiliklə müəyyən edilmiş hüquqları, imtiyazları və güzəştləri haqqında məlumatları sadə və anlaşılan şəkildə çatdırmaqdan ibarətdir.

Vəsait 6 bölmədən ibarətdir. Birinci bölmə əlilliyin müəyyən edilməsi məsələlərinə həsr edilib. Burada əlilliiyin müəyyən edilməsi üzrə normativ hüquqi baza, əlilliyin səbəbləri, meyarları, əlillik statusunun əldə edilməsi mərhələləri və əlilliyin müddətləri haqqında məlumatlar verilir. İkinci bölmənin əsas məzmununu əlilliyi olan şəxslərin hüquqları haqqında məlumatlar təşkil edir. Bölmənin əsas məlumat yükü hədəf qrupların malik olduqları müxtəlif sosial-iqtisadi hüquqları və bu hüquqların pozulmasına görə hüquqi məsiliyyət haqqında məlumatlardan ibarətdir. Növbəti bölmə əlilliyi olan şəxslərin vergi, sığorta, nəqliyyat və digər vasitələrlə təchizatları üzrə imtiyazlari və güzəştləri haqqında məlumatları əks etdirir. Dördüncü bölmə isə əlilliyi olan şəxslərə qulluq edən şəxslərə verilən ünvanlı sosial yardım, əmək münasibətləri və vergilərə aid güzəştlərdən bəhs edir. Beşinci bölmədə əlilliyi olan şəxslər üçün nəzərdə tutulan sosial ödənişlərin növləri və bu ödəniş növləri haqqında detallı məlumatlar yer almışdır. Ən nəhayət, sonuncu - altıncı bölmə hədəf qrupları müəyyən qrup əlilliyi olan şəxslərə şamil olunan prezident təqaüdləri haqqında məlumatlarla təmin edir.

Müasir informasiya-kommunikasiya texnologiyalarının yaratdığı imkanları nəzərə alaraq müvafiq tənzimləyici normativ-hüquqi aktlar və onların internet resurslarındakı linkləri haqqında da məlumatların verilməsi ilə istifadəçilərə onları maraqlandıran məsələlərlə mənbədən daha ətraflı şəkildə tanış olmaq fürsəti yaradılmışdır.

## MÜNDƏRİCAT

GİRİŞ ........ 3

BÖLMƏ 1. ƏLİLLİYİN MÜƏYYƏN EDİLMƏSİ ........ 7
1.1. Əlilliyin səbəbləri ........ 7
1.2. Əlilliyin müəyyən edilməsi meyarları ........ 8
1.3. Əlilliyin qiymətləndirilməsi mərhələləri ........ 11
1.4. Əlilliyin müəyyən edilməsi ilə bağlı qərardan şikayət ........ 15
1. 5. Əlilliyin müddətləri ........ 16

BÖLMƏ 2. ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN HÜQUQLARI ........ 17
2. 1. Əmək fəaliyyəti ilə bağlı hüquqlar ........ 17
2. 2. Məşğulluqla bağlı hüquqlar ........ 19
2. 3. Təhsillə bağlı hüquqlar ........ 20
2. 4. Hərbi xidmətə çağırışçılarla bağlı hüquqlar ........ 20
2. 5. Çernobıl AES səbəbilə əlilliyi olan şəxslərin hüquqları ........ 21
2. 6. Zərərçəkən və itirilmiş qazanc ........ 22
2. 7. Mənzil təminatı ........ 22
2. 8. Minik avtomobili təminatı ........ 23
2. 9. Əlillərin hüquqlarının pozulmasına görə məsuliyyət ........ 24

BÖLMƏ 3. İMTİYAZLAR VƏ GÜZƏŞTLƏR ........ 25
3.1. Vergi imtiyazları ........ 25
3.2. Sığorta imtiyazları ........ 26
3.3. Reabilitasiya vasitələri ilə təchizat ........ 27
3.4. Minik avtomobili və təkərli oturacaqla təminat ........ 28
3.5. Reabilitasiya müalicəsi ........ 29
3. 6. Dərman preparatları, tibbi xidmət və sanatoriya-kurort müalicəsi ........ 31
3. 7. Hüquqpozma törətmiş əlil şəxslərə edilən güzəştlər ........ 33

BÖLMƏ 4. ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ QULLUQ EDƏN ŞƏXSLƏRƏ VERİLƏN GÜZƏŞTLƏR ........ 34
4.1. Ünvanlı sosial yardım hüququ ........ 34
4.2. Əmək münasibətləri ilə bağlı güzəştlər ........ 34
4.3. Vergi güzəştləri ........ 35

BÖLMƏ 5. SOSİAL ÖDƏNİŞLƏR....38
5.1. Sosial ödənişin növləri....38
5.2. Əlilliyə görə əmək pensiyası....38
5.3. Əlilliyə görə sosial müavinət....42
5.4. Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinət....44
5.5. Çernobıl AES qəzası nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə və radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərin qəza nəticəsində sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş 18 yaşınadək uşaqlarına hər il müalicə üçün müavinət....44
5. 6. Dövlət qulluqçusuna ömürlük müavinət....45
5. 7. Skleroz xəstəliyinə tutulmuş şəxslərə sosial müavinət....47
5. 8. Onkoloji xəstələrə sosial müavinət....47

BÖLMƏ 6. PREZİDENT TƏQAÜDLƏRİ....49
6.1. Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü....49
6.2. Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü....50
6.3. Ümumi səbəblərdən I dərəcə gözdən əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü....51

# BÖLMƏ 1. ƏLİLLİYİN MÜƏYYƏN EDİLMƏSİ

Bu bölmədə əlilliiyin müəyyən edilməsi üzrə normativ hüquqi baza, əlilliyin səbəbləri, meyarları, əlillik statusunun əldə edilməsi mərhələləri və əlilliyin müddətləri haqqında məlumatlar əks olunub.

## 1.1. Əlilliyin səbəbləri

Şəxsin əlilliyi aşağıdakı səbəblərdən birinə əsasən müəyyən edilir:

**a. Ümumi səbəblər:**

1. ümumi xəstəlik;
2. istehsalat zədəsi;
3. peşə xəstəliyi;
4. Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar;
5. hərbi xidmət dövrü ilə əlaqədar;
6. hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar;
7. terror hadisəsi ilə əlaqədar;

**b. Xüsusi səbəblər:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar;
2. 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar;
3. hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar;
4. Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar.

## 1.2. Əlilliyin müəyyən edilməsi meyarları

Əlilliyin müəyyən edilməsi AR Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş və 01 iyul 2022-ci ildən qüvvəyə minmiş "Əlilliyin müəyyən olunması meyarları"na[1] uyğun olaraq aparılır. Yeni meyarlara əsasən əlillik insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyası üzrə məhdudlaşma dərəcələri əsasında qiymətləndirilir.

**1. özünəqulluq bacarığı** (insanın əsas fizioloji tələbatlarını sərbəst keçirməsi, gündəlik ev işləri ilə məşğul olması, şəxsi gigiyena bacarıqları):

- I dərəcə – tələb olunduğundan daha çox vaxtda, dağınıq formada, köməkçi texniki vasitələrdən istifadə etməklə özünəqulluq bacarığı;
- II dərəcə – mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə, köməkçi texniki vasitələrdən istifadə etməklə özünəqulluq bacarığı;
- III dərəcə – kənar şəxslərin daimi kömək və qayğısına ehtiyacın olması, onlardan tam asılılıqla əlaqədar özünəqulluq bacarığı;

**2. sərbəst hərəkətetmə bacarığı** (sərbəst hərəkət etmək, hərəkət zamanı, hərəkətsizlik, bədən vəziyyəti dəyişdirilərkən bədənin tarazlığını qorumaq, ictimai nəqliyyatdan istifadə bacarığı):

- I dərəcə – tələb olunduğundan daha artıq vaxt sərf etməklə, dağınıq formada və köməkçi texniki vasitələrdən istifadə etməklə sərbəst hərəkət etmək bacarığı;
- II dərəcə – mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə, köməkçi texniki vasitələrdən istifadə etməklə sərbəst hərəkət etmək bacarığı;
- III dərəcə – sərbəst hərəkət etmək bacarığının olmaması, kənar şəxslərin daimi köməyinə ehtiyacın olması;

**3. istiqamətseçmə bacarığı** (ətraf şəraitin adekvat qavranılması, olduğu və ya səmtləndiyi yerin (məkanın) zamana görə müəyyən edilməsi və təhlükəsizliyinin qiymətləndirilməsi bacarığı):

[1] https://e-qanun.az/framework/49623

- I dərəcə – yalnız öyrəşdiyi vəziyyətlərdə, yaxud köməkçi texniki vasitələrin köməyi ilə sərbəst istiqamətseçmə bacarığı;
- II dərəcə – mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə, köməkçi texniki vasitələrin istifadəsi ilə sərbəst istiqamətseçmə bacarığı;
- III dərəcə – istiqamətseçmə bacarığının olmaması və kənar şəxslərin köməyinə daimi ehtiyacın olması;

**4. ünsiyyət bacarığı** (məlumatın qavranılması, təhlili, yadda saxlanması, istifadəsi, ötürülməsi yolu ilə insanlarla ünsiyyət qurmaq bacarığı):

- I dərəcə – məlumatın qəbulu, ötürülməsi sürətinin azalması və köməkçi texniki vasitələrdən istifadə etməklə ünsiyyət qurmaq bacarığı, eşitmə orqanının hissəvi zədələnməsi zamanı isə qeyri-verbal ünsiyyət metodları və surdotərcümə xidmətindən istifadə edərək ünsiyyət qurmaq bacarığı;
- II dərəcə – mütəmadi olaraq kənar şəxslərin qismən köməyi ilə və köməkçi texniki vasitələrdən istifadə edərək ünsiyyət qurmaq bacarığı;
- III dərəcə – ünsiyyət qurmaq bacarığının olmaması və daim kənar şəxslərin köməyinə ehtiyacın olması;

**5. davranışına nəzarətetmə bacarığı** (özünü dərk etmək, sosial, hüquqi və mənəvi-etik normaları ehtiva edən adekvat davranış bacarığı):

- I dərəcə – davranışına nəzarətetmə bacarığının mütəmadi olaraq məhdudlaşması və (və ya) qismən özünü idarə etmək imkanı ilə həyati vacib funksiyaların yerinə yetirilməsində çətinliyin olması;
- II dərəcə – davranışına nəzarət bacarığının daimi azalması və yalnız kənar şəxslərin mütəmadi köməyi ilə qismən özünüidarəetmə;
- III dərəcə – davranışına nəzarətetmə və özünüidarəetmə bacarığının olmaması, daim kənar şəxslərin köməyinə ehtiyacın olması;

**6. öyrənmə bacarığı** (bilik və bacarıqların qavranılması, təcrübənin artırılması, əldə edilən bilikləri gündəlik həyatda tətbiq etmək bacarığı):

- I dərəcə – psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında təhsil müəssisələrində və evdə yaradılan xüsusi şəraitdə köməkçi texniki vasitələrin köməyi ilə öyrənmək və təhsil almaq bacarığı;
- II dərəcə – psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında xüsusi dövlət təhsil standartları və proqramları çərçivəsində təhsil müəssisələrində köməkçi texniki vasitələrin köməyi ilə öyrənmək və təhsil almaq bacarığı;
- III dərəcə – yalnız sadə bacarıq, o cümlədən adi məişətdə sadə hərəkətlər qaydalarını öyrənmək bacarığı, yaxud psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi ilə müəyyən edilmiş ciddi orqanizm funksiyası pozuntuları səbəbilə həmin bacarıqları qavramaq çətinliyinin olması;

**7. əmək fəaliyyəti bacarığı** (işin yerinə yetirilməsinə, keyfiyyətinə, həcminə və məzmununa dair tələblərə uyğun əmək fəaliyyəti bacarığı):

- I dərəcə – iş həcminin, iş yükünün, əməyin gərginliyinin və peşəkarlığın azalması ilə müşayiət olunan əmək fəaliyyəti bacarığı, əsas peşəsi (vəzifəsi, ixtisası) üzrə əmək fəaliyyətini davam etdirə bilməmək, lakin adi iş şəraitində əmək fəaliyyətini həyata keçirmək bacarığı;
- II dərəcə – əlilliyi olan şəxslərə uyğunlaşdırılmış iş yerlərində köməkçi texniki vasitələrdən istifadə edərək əmək fəaliyyətini həyata keçirmək bacarığı;
- III dərəcə – orqanizmin funksiyalarının ciddi pozuntuları səbəbindən sadə əmək fəaliyyətinin qeyri-mümkünlüyü, yaxud kənar şəxslərin əhəmiyyətli köməyi ilə həyata keçirmək bacarığı.

Qeyd olunan bacarıqların III dərəcə məhdudlaşması halı orqanizmin funksiyalarının 81-100 faiz, II dərəcə məhdudlaşması halı 61-80 faiz, I dərəcə məhdudlaşması halı 31-60 faiz pozulması kimi nəzərə alınır və bu əsasda da əlillik təyin olunur.

Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının klinik funksional xüsusiyyətləri, XBT-10, orqanizmin funksiyalarının pozulması faizi və müddəti "Əlilliyin müəyyən olunması meyarları"na Əlavə ilə müəyyən edilmişdir.

## 1.3. Əlilliyin qiymətləndirilməsi mərhələləri

Əlilliyin qiymətləndirilməsi 3 mərhələdən ibarətdir:

**I mərhələ: Əlilliyin qiymətləndirilməsi üçün tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin (forma 88) verilməsi**

Göndərişlərin verilməsi ilə bağlı münasibətlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"[2] ilə tənzimlənir.

Şəxsə göndəriş maddi-texniki bazası, kadr potensialı, ixtisaslaşması, əhaliyə xidmətin əlçatanlığı nəzərə alınmaqla, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, birgə müəyyən etdiyi siyahıda göstərilən tibb müəssisələrinin həkim-məsləhət komissiyaları tərəfindən verilir. Göndəriş vermək hüququ olan tibb müəssisələrinin siyahısı[3] Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet saytında yerləşdirilib.

Göndəriş verilməsi üçün əsaslar aşağıdakılardır:

1. şəxsin son 12 ay ərzində eyni xəstəliklə fasiləsiz və ya fasilələrlə ümumilikdə 6 aydan çox (vərəm xəstələri üçün 10 aydan) müalicədə olması və müalicə tədbirləri tam başa çatdıqdan sonra orqanizmin pozulmuş funksiyalarının bərpa olmaması, şəxsin əqli və ya fiziki qüsurları nəticəsində həyat fəaliyyətinin məhdudlaşması;
2. əlilliyin və uşaqların sağlamlıq imkanlarının məhdudluğu (bundan sonra - əlillik) müddətinin bitməsi;
3. peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi;

[2] https://e-qanun.az/framework/44218

[3] https://its.gov.az/uploads/law/115/677573.pdf

4. şəxsin sağlamlıq vəziyyətində olan dəyişikliklərlə bağlı əlillik müddətinin başa çatma vaxtından əvvəl müayinəsi;
5. əlillik səbəbinə yenidən baxılması zərurətinin yaranması;
6. xüsusi nəqliyyat vasitəsinin verilməsinə tibbi göstərişin müəyyən edilməsi.

Göndəriş verilməsi üçün müraciət edən (yazılı və ya elektron formada) şəxslərin müraciət etdikdən sonra 7 (yeddi) iş günündən gec olmayaraq, səhiyyə müəssisəsi tərəfindən sağlamlıq vəziyyətinin müəyyən edilməsi üçün funksional, diaqnostik, laborator və obyektiv müayinələri aparılır, xəstəlik tarixindən çıxarışlar (epikrizlər) toplanılır, ehtiyac yaranarsa, diaqnozun dəqiqləşdirilməsi üçün şəxs əlavə ambulator və ya stasionar müayinəyə göndərilir.

"Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 413 nömrəli qərarına[4] uyğun olaraq əlilliyin müddətsiz təyin edilməsinə əsas verə bilən tibbi göstərişlərin olduğu hallarda göndərişlər sadələşdirilmiş qaydada (əlavə müayinələr, xəstəlik tarixindən çıxarışlar (epikrizlər), funksional diaqnostik müayinələr tələb edilmədən) verilir.

Göndəriş müalicə həkimi tərəfindən doldurulur. Göndərişdə şəxsin fərdi identifikasiya nömrəsi qeyd edilməklə, onun sağlamlıq vəziyyətini əks etdirən müayinələrin nəticələri, mütəxəssislərin ətraflı obyektiv məlumatları, aparılmış müalicə tədbirləri və onların səmərəliliyi, xəstəliyin inkişaf proqnozu, xəstəliklərin beynəlxalq təsnifatına uyğun olaraq əsas diaqnoz, yanaşı xəstəliklər və ağırlaşmalar göstərilir.

Şəxsin saglamlıq vəziyyəti ilə bağlı Tibbi-Sosial Ekspert Komissiyasına (TSEK) getmək imkanı olmadıqda (şəxsin hərəkət imkanı məhdud olduqda və heç bir reabilitasiya vasitəsinə sahib olmadıqda, səhiyyə müəssisəsində stasionar müalicə aldıqda), bu barədə göndərişdə həkim-məsləhət və ya hərbi-həkim komissiyasının rəyi qeyd olunur.

Doldurulmuş göndəriş protokolla rəsmiləşdirilir. Protokol həkim-məsləhət və ya hərbi-həkim komissiyasının sədri və üzvləri tərəfindən

[4] http://www.e-qanun.az/framework/31771

imzalanır və möhürlə təsdiq edilir. Protokolla rəsmiləşdirilmiş göndəriş 2 (iki) iş günü ərzində "Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin Reyestri"nə daxil edilir.

Göndəriş Reyestrə "Elektron hökumət" poltalında yerləşdirilmiş "Səlahiyyətli şəxsin qeydiyyatdan keçirilməsi" xidməti vasitəsilə səhiyyə müəssisəsi rəhbərinin səlahiyyət verdiyi şəxslər tərəfindən gücləndirilmiş elektron imza ilə üzərində xüsusi təkrarlanmayan nömrəsi olan elektron sənəd formasında daxil edilir. Göndəriş Reyestrə daxil edilən gün şəxsə bu barədə məlumat verilir.

## II mərhələ: TSEK tərəfindən əlilliyin qiymətləndirilməsi

Əlilliyin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası" ilə müəyyən edilmiş tibbi-sosial ekspertizanın nəticələrinə müvafiq qaydada AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən həyata keçirilir.

Qiymətləndirmə tibbi-sosial ekspertiza müayinəsinə göndəriş vermək hüququ olan tibb müəssisələrinin həkim-məsləhət komissiyaları və ya hərbi-həkim komissiyaları tərəfindən "Tibbi-sosial ekspert komissiyasına göndərişlərin reyestri"nə elektron sənəd formasında daxil edilmiş tibbi-sosial ekspertiza müayinəsinə göndəriş əsasında aparılır.

Göndərişin rəsmiləşdirilməsi barədə məlumat "Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin reyestri"nə daxil edildikdən sonra altsistemə ötürülür. Göndəriş altsistem tərəfindən qəbul edildikdən sonra göndərişi verən Komissiyanın, bu göndərişi təsdiq edən vəzifəli şəxslərin və əlilliyi qiymətləndiriləcək şəxsin kimliyini birbaşa və ya dolayısilə müəyyən etməyə imkan verən bütün məlumatlar şifrlənərək adsızlaşdırılır. Adsızlaşdırılmış göndərişlər əlilliyin qiymətləndirilməsi məqsədilə altsistem üzərindən dərhal TSEK-ə göndərilir.

TSEK 10 (on) iş günündən çox olmamaqla göndərişdə qeyd olunmuş məlumatlar əsasında şəxsin əlilliyini qiymətləndirir, əlilliyin müəyyən olunmasına və ya səbəblərini göstərməklə, imtinaya dair qərar qəbul edir.

Əlavə araşdırma tələb olunduğu hallarda, TSEK-in müraciəti əsasında bu müddət Agentlik tərəfindən 15 (on beş) iş gününədək uzadıla bilər.

Qərar müəyyən edilmiş formada qəbul edilir və əlilliyin qiymətləndirilməsinə dair məlumatlar, eləcə də şəxsin sosial müdafiə tədbirlərinə və reabilitasiya vasitələrinə ehtiyacının olmasına dair tibbi göstəriş və əmək zəmanəti altsistemə daxil edilir, TSEK-in sədri və üzvləri tərəfindən gücləndirilmiş elektron imza ilə imzalanır.

Əlilliyin qiymətləndirilməsi barədə qərarın obyektivliyinin təmin edilməsi məqsədilə göndərişlər seçmə qaydada 5 (beş) TSEK-dən çox olmamaq şərtilə bir neçə TSEK-ə göndərilir. Əlilliyin qiymətləndirilməsi zamanı TSEK-dən birinin qərarı digər TSEK-lərin qərarından fərqləndikdə, bu barədə məlumatlar altsistem vasitəsilə Agentliyə ötürülür və yekun qərar 10 gündən gec olmayaraq Agentlik tərəfindən qəbul edilir.

Göndəriş natamam və ya yanlış doldurulduqda, TSEK altsistemin xüsusi bölməsində müvafiq qeyd aparmaqla bu barədə bildirişi altsistem vasitəsilə onu rəsmiləşdirmiş Komissiyaya göndərir.

İstehsalat zədəsi və ya peşə xəstəliyi ilə əlaqədar ilkin əlilliyi qiymətləndirilən şəxs peşə əmək qabiliyyətini itirmə faizinin təyin edilməsi üçün işəgötürənin yazılı sorğusu ilə birlikdə istehsalat zədəsinin baş verməsini təsdiq edən aktı və ya məhkəmənin qərarını, V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu tərəfindən verilən sağlamlığın peşə ilə əlaqədar pozulmasını təsdiq edən tibbi sənədi kağız daşıyıcıda və ya elektron formada Agentliyə təqdim edir. Agentlik qiymətləndirmə apararaq, peşə əmək qabiliyyətinin itirilmə faizini təyin edir və altsistemə daxil edir.

## III mərhələ: Əlilliyin müəyyən edilməsi ilə bağlı qərar

TSEK tibbi-sosial ekspertiza müayinəsinə göndərişdə (forma 88) əksini tapan məlumatlar əsasında 3 qərardan birini qəbul edir:

- Əlillik müəyyən edilir;
- Əlilliyin müəyyən edilməsindən imtina edilir;
- Reabilitasiya tədbirlərinin davam etdirilməsi tövsiyyə edilir.

## 1.4. Əlilliyin müəyyən edilməsi ilə bağlı qərardan şikayət

Əlilliyin qiymətləndirilməsi barədə qərarla razı olmayan şəxsin qərardan şikayət hüququ vardır. Şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq, inzibati qaydada və (və ya) məhkəməyə verilir.

Əlilliyin qiymətləndirilməsini barədə qərarlardan verilmiş şikayətlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən "Əlilliyin qiymətləndirilməsi Qaydasının" tələblərinə riayət edilməklə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılır.

Əlilliyin qiymətləndirilməsi barədə TSEK-in qərarının düzgünlüyünü şübhə altına alan əsaslı sübutlar təqdim edildiyi hallarda, Agentlik əlilliyi müəyyən edilmiş şəxsi əyani müayinəyə cəlb edir. Müayinənin nəticələrinə əsasən, TSEK-in qəbul etdiyi qərarın qüvvədə saxlanılması, dəyişdirilməsi və ya ləğvi barədə qərar qəbul edir və həmin gün ərzində altsistemə daxil edir.

Agentliyin əlilliyin qiymətləndirilməsi barədə qərarlarından verilmiş şikayətlərə Nazirliyin 9 (doqquz) nəfər məsul işçisindən ibarət tərkibdə yaratdığı Komissiyada 15 (on beş) iş günü müddətində baxılır. Komissiyanın qərarları sadə səs çoxluğu ilə qəbul edilir və həmin gün ərzində altsistemə daxil edilir.

## 1. 5. Əlilliyin müddətləri

"Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin üçüncü hissəsinə əsasən həmin Qanunun 5-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən şəxslərin əlilliyi Çernobıl qəzası nəticəsində əmələ gəldikdə, əlillik müddətsiz müəyyən edilir;

Müddət göstərilməklə müəyyən olunmuş orqanizmin funksiyalarının pozulması 31-60 faiz aralığında ardıcıl olaraq 15 il, 61-80 faiz aralığında ardıcıl olaraq 10 il və 81-100 faiz aralığında ardıcıl olaraq 4 il müddətində müəyyən olunduğu halda, eləcə də fərqli faiz aralıqları üzrə bu Qaydanın 4.3-cü bəndi nəzərə alınmaqla 15 il əlillik müddəti olduqda, növbəti qiymətləndirmə zamanı əlillik müddətsiz müəyyən edilir;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nın qüvvəyə mindiyi günədək əlilliyi müəyyən edilmiş şəxslərin əlillik müddətləri I, II və III dərəcə üzrə müvafiq olaraq 81-100 faiz, 61-80 faiz və 31-60 faiz kimi bu Qaydanın 4.2-ci bəndində qeyd edilmiş müddətlərə daxil edilir. Həmin tarixədək müəyyən edilmiş sağlamlıq imkanlarının məhdudluğu müddəti orqanizmin funksiyalarının pozulmasının hər üç faiz aralığı müddəti üzrə nəzərə alınır;

"Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş yaşa görə əmək pensiyası (güzəştli şərtlərlə yaşa görə əmək pensiyası istisna olmaqla) və yaxud sosial müavinət almaq hüququ verən yaş həddinə çatan şəxslərə əlillik müddətsiz müəyyən edilir.

# BÖLMƏ 2. ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN HÜQUQLARI

Bu bölmənin əsas məzmununu əlilliyi olan şəxslərin hüquqları haqqında məlumatlar təşkil edir. Bölmənin əsas məlumat yükü hədəf qrupların malik olduqları müxtəlif sosial-iqtisadi hüquqları və bu hüquqların pozulmasına görə hüquqi məsiliyyət haqqında məlumatlardan ibarətdir.

## 2. 1. Əmək fəaliyyəti ilə bağlı hüquqlar

- Əlilliyi olan işçilər gecə vaxtı görülən işlərə yalnız onların yazılı razılığı ilə cəlb edilə bilərlər.
- I və II dərəcə əlilliyi olan işçilər üçün iş vaxtı həftə ərzində 36 saatdan artıq olmamalıdır.
- Vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlilliyi müəyyən edilmiş işçilərin attestasiyası keçirilmir.
- İşəgötürən tərəfindən əlilliyi olan şəxslərin işləməsi üçün əlilliyi olan şəxslər üçün iş yerlərinin standartlarına cavab verən iş yeri və iş şəraiti yaradılmalıdır;
- İşəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi olan işçilərin, onların arzusu ilə və Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmağa və ya yenilərini təşkil etməyə borcludurlar.
- İşçilərin ixtisarı zamanı ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslərə üstünlük verilməlidir.
- Müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya

subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə, həmçinin həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan işçi ilə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə yol verilmir.

- Əlilliyi, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu olan şəxslərin ərizələri əsasında işəgötürən tərəfindən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən edilməlidir. Qısaldılmış iş vaxtının müddəti həftə ərzində 16 yaşınadək işçilər üçün 24 saatdan, 16 yaşdan 18 yaşadək işçilər və 1-ci, 2-ci dərəcə əlilliyi olan işçilər üçün 36 saatdan artıq olmamalıdır.
- Əlilliyin dərəcəsindən, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə əmək məzuniyyəti 42 təqvim günündən az olmayaraq verilir.
- Əlilliyin dərəcəsindən və səbəbindən asılı olmayaraq əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə ödənişsiz məzuniyyət -1 təqvim ayınadək.
- Əlilliyi olan şəxslərin əmək müqaviləsinin bağlandığı vaxt nəzərə alınmadan işin birinci ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ vardır.
- Əmək məzuniyyəti əlilliyi olan şəxslərə öz arzusu ilə onlar üçün əlverişli olan vaxtda verilə bilər.
- İş yerində bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və yüngül işə müvəqqəti keçirilmiş işçilərə əvvəlki əmək haqqı ilə yeni iş yerindəki əmək haqqı arasındakı fərq ödənilir. Bu fərq işçinin əmək qabiliyyəti bərpa olunanadək və ya əlillik sonunadək ödənilməlidir.
- İstehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən I və II dərəcə əlilliyi olan şəxslərin yaşa görə əmək pensiyası üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət onların sığorta stajına daxil edilir.

- Əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə yol verilmir.
- Əmək kollektivlərinin razılığı ilə kollektivdə işləyən III dərəcə əlilliyi olan şəxslərin və ya sağlamlıq imkanları məhdud uşaqların əmək haqqının (tarif dərəcəsinin) digər işçilərə nisbətən 10-15 faiz, I və II dərəcə əlilliyi olan şəxslərin və ya sağlamlıq imkanları məhdud uşaqların əmək haqqının isə 20-25 faiz artırılması təmin edilir.

## 2. 2. Məşğulluqla bağlı hüquqlar

Əlilliyi olan şəxslər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər, sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən valideynlər üçün mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatlarda vətəndaşların məşğulluğunu təmin etmək üçün kvota tətbiq edilir.

Kvota şamil edilməyən müəssisələr:

- ✓ Dövlət orqanları;
- ✓ Mərkəzi və yerli seçkili orqanlar (seçki yolu ilə tutulmayan vəzifələr istisna olmaqla);
- ✓ Elm və ali təhsil müəssisələri (elmi və elmi-pedaqoji fəaliyyətlə bağlı müsabiqə yolu ilə tutulmayan vəzifələr istisna olmaqla);
- ✓ İşçilərinin orta illik siyahı sayı 25 nəfərdən az olan müəssisələr;

Hərbi qurumların, hüquq mühafizə, milli təhlükəsizlik və prokurorluq orqanlarının tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən struktur bölmələri, penitensiar müəssisələr və istintaq təcridxanaları.

Özünüməşğulluq tədbirlərində əlilliyi olan şəxslərə o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara üstünlük verilir.

Sosial iş yerlərinin təşkili zamanı əlilliyi olan şəxslərə o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara üstünlük verilir.

## 2. 3. Təhsillə bağlı hüquqlar

- Dövlət məktəbəqədər təhsil müəssisəsinə, ilk növbədə, Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslərin, I və II dərəcə əlilliyi olan şəxslərin uşaqları qəbul edilirlər
- Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.
- I, II və III dərəcə əlilliyi olan şəxslərin həmçinin, 20 yaşına çatmamış və I dərəcə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslərin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

## 2. 4. Hərbi xidmətə çağırışçılarla bağlı hüquqlar

Ailə vəziyyətinə görə müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət, himayəsində aşağıdakı şəxslər olan çağırışçılara verilir:

- başqa övladı olmayan I dərəcə əlilliyi olan ata, yaxud ana;
- I dərəcə əlilliyi olan arvad;
- 18 yaşınadək və yaxud I dərəcə əlilliyi olan qardaş və ya bacı, onları saxlamaq imkanına malik başqa ailə üzvləri[5] olmadıqda.

[5] "saxlamaq imkanına malik başqa ailə üzvləri" dedikdə çağırışçının maddi və mənəvi yardıma ehtiyacı olan qardaş və ya bacısını saxlamalı, onlara qayğı göstərməli və bunun üçün real imkanlara malik olan qardaş və ya bacının ailə üzvləri nəzərdə tutulur.

## 2. 5. Çernobıl AES səbəbilə əlilliyi olan şəxslərin hüquqları

- Çernobıl AES-də qəza nəticəsində şüa xəstəliyinə tutulmuş və ya bu xəstəliyi keçirmiş, habelə əlilliyi müəyyən edilmiş şəxslərə, əmək qabiliyyətini müvəqqəti itirmiş işləyən əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara 4 ay dalbadal, yaxud bir təqvim ilində 5 aya qədər müavinət verilir.

- Şüa xəstəliyinə tutulmuş və bu xəstəliyi keçirmiş şəxslər, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar tibbi göstəricilərə əsasən azmaaşlı işə keçirilərkən əvvəlki maaşla yeni maaş arasındakı fərqi almaq hüququna malikdirlər. Bu fərq əmək qabiliyyəti bərpa edilənədək, yaxud əlillik, o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdudluğu müəyyənləşdirilənədək iş yerində ödənilir.

- Çernobıl AES-də qəza nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin, o cümlədən köçürmə zonası hüdudlarında zərər çəkmiş vətəndaşların qəza baş verdikdən sonra doğulmuş və Azərbaycan Respublikası vətəndaşları olan övladlarının , əlilliyi Çernobıl qəzası nəticəsində əmələ gəldikdə, əlillik sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara 18 yaşı tamam olana qədər, 18 yaşından yuxarı əlilliyi olan şəxslərə isə müddətsiz müəyyən edilir.

- Çernobıl AES-də qəza nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə, o cümlədən köçürmə zonası hüdudlarında zərər çəkmiş vətəndaşların qəza baş verdikdən sonra doğulmuş və Azərbaycan Respublikası vətəndaşları olan övladlarına, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların səhhətinin pozulmasına səbəb olmuş ziyana görə onlara aşağıdakı məbləğlərdə birdəfəlik maddi yardım göstərilir:

  - ✓ I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud uşaqlara -minimum əmək haqqının 30 misli məbləğində;
  - ✓ II dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud uşaqlara -minimum əmək haqqının 20 misli məbləğində;
  - ✓ III dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud uşaqlara -minimum əmək haqqının 15 misli məbləğində.

## 2. 6. Zərərçəkən və itirilmiş qazanc

- İtirilmiş qazanc (gəlir) müəyyənləşdirilərkən zərərçəkənə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə pozulması ilə əlaqədar təyin edilmiş əlilliyə görə pensiya, eləcə də həm sağlamlığına zərər vurulanadək, həm də zərər vurulduqdan sonra təyin edilmiş digər pensiyalar, müavinətlər və digər bu cür ödənişlər nəzərə alınmır və zərərin əvəzinin ödənilməsi miqdarının azaldılmasına səbəb olmur (zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir). Zərərçəkənin sağlamlığı pozulduqdan sonra əldə etdiyi qazanc (gəlir) da zərərin əvəzinin ödənilməsi hesabına daxil edilmir.
- Zərərçəkən - ailə başçısının öldüyü halda zərərin əvəzi ölənin himayəsində olmuş və ya onun öldüyü günədək ondan dolanacaq təminatı almaq hüququna malik olmuş əlilliyi olan şəxslərə - əlillik müddəti üçün ödənilir.

## 2. 7. Mənzil təminatı

- Sosial kirayə müqavilələri əsasında yaşayış sahələrinin kirayəçisi və ya ailə üzvləri, yaxud yaşayış sahəsinin mülkiyyətçisi və ya yaşayış sahəsi mülkiyyətçisinin ailə üzvləri olmayan və yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış işəgötürənin təqsiri üzündən baş vermiş əmək xəsarəti nəticəsində əlilliyi müəyyən edilmiş I və ya II dərəcə əlilliyi olan şəxslər, əmək vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar peşə xəstəliyinə tutulma nəticəsində əlilliyi müəyyən edilmiş I və ya II dərəcə əlilliyi olan şəxslər, hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi zamanı yaralanmış, kontuziya nəticəsində və ya hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar xəstəlik nəticəsində I və ya II dərəcə əlilliyi müəyyən edilmiş hərbi qulluqçular xidməti yaşayış sahələrindən və yataqxanalarda yaşayış sahələrindən digər yaşayış sahəsi verilmədən çıxarıla bilməz.
- Əlilliyi müəyyən edilmiş müharibə veteranlarına əlavə bir torpaq payı verilir.

- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirakla əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə fərdi yaşayış evinin tikintisi üçün torpaq sahələri bir dəfə pulsuz verilir.
- 2014-cü il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər mənzil və ya fərdi evlə təmin edilirlər.
- Mənzil və ya ev (evin bir hissəsi) alqı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə I dərəcə əlilliyi olan işləməyən şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar notariat hərəkətlərinin aparılmasına görə dövlət rüsumu ödəmirlər.
- Hərbi xidmət vəzifələrinin icrası ilə əlaqədar əlilliyi müəyyən edilmiş və bununla əlaqədar hərbi xidmətdən buraxılmış hərbi qulluqçulara seçdikləri yaşayış yerində mənzil və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi növbədənkənar verilir.
- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə iştirakla əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə və həlak olanların ailəsinə bələdiyyə torpaqlarının mülkiyyətə (icarəyə) verilməsi məqsədilə torpaq hərracları və ya müsabiqələrinin keçirilməsi zamanı bərabər təkliflər irəli sürüldükdə üstünlük verilir.

## 2. 8. Minik avtomobili təminatı

Aşağıdakı səbəblərlə əlilliyi olan şəxslər tibbi göstəriş pulsuz minik avtomobili ilə təmin olunurlar:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar;
- 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar;
- hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar;
- Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar.

## 2. 9. Əlillərin hüquqlarının pozulmasına görə məsuliyyət

- Əmək münasibətlərində əlillik əlamətinə görə hər hansı ayrı-seçkiliyə yol verilməsinə, habelə kollektiv və əmək müqavilələrində digər işçilərlə münasibətdə əlilliyi olan şəxslərin əmək hüquqlarının məhdudlaşdırılmasına;
- Əlilliyi olan şəxsin səhhətinin peşə vəzifələrini yerinə yetirməsinə mane olduğu, yaxud başqa şəxslərin səhhəti və əmək təhlükəsizliyi üçün təhlükə törətdiyi hallar istisna olmaqla, onunla əlillik səbəbindən əmək müqaviləsini bağlamaqdan, işdə irəli çəkməkdən imtina edilməsinə, əmək müqaviləsinə xitam verilməsinə və öz razılığı olmadan başqa işə (peşəyə, vəzifəyə) keçirilməsinə;
- Ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə bağlanılmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;
- Müəssisənin ləğv edilməsi halları istisna olmaqla, həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçi ilə əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə;
- Əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı məqsədilə tərtib olunmuş Fərdi Reabilitasiya Proqramının dövlət orqanları və dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən icrasının təmin edilməməsinə;
- İşəgötürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və bunun nəticəsində əlilliyi müəyyən edilmiş işçilərin, onların arzusu ilə və Fərdi Reabilitasiya Proqramını nəzərə alaraq, işə düzəlməsi üçün iş yerləri ayırmamağa və ya yenilərini təşkil etməməyə görə - üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə nəzərdə tutulur.
- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin yaşadığı fərdi evlərin onlar üçün uyğunlaşdırılması ilə bağlı xərclərin təqsirkar hüquqi və fiziki şəxslər, dövlət orqanları tərəfindən ödənilməməsinə görə - beş yüz manatdan min manatadək məbləğdə cərimə nəzərdə tutulur

# BÖLMƏ 3. İMTİYAZLAR VƏ GÜZƏŞTLƏR

Bu bölmə əlilliyi olan şəxslərin vergi və sığorta üzrə, həmçinin minik avtomobilləri, reabilitasiya və dərman vasitələri, digər tibbi xidmətlərlə təchizat və təminat üzrə imtiyazlari və güzəştləri haqqında məlumatları əks etdirir.

## 3.1. Vergi imtiyazları

Vergi Məcəlləsinin 102.8-ci maddəsinə görə müharibə səbəbilə istənilən dərəcə əlilliyi olan şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. (Misal: Müharibə səbəbilə əlilliyi olan şəxsin hər hansı muzdlu işdən aylıq gəliri 600 manat məbləğindədir. Aylıq gəlir 400 manat məbləğində azaldılır, nəticədə 200 manatdan gəlir vergisi tutulur. 600-400 =200 200* 14/100= 28 (14 % gəlir vergisi) 28 man gəlir vergisi.

I və II dərəcə əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin, daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) birinin, arvadın (ərin), himayəçinin və ya qəyyumun hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır. (Misal: I və II dərəcə əlilliyi olan şəxsin və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxsin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 500 manat məbləğindədir. Aylıq gəlir 200 manat məbləğində azaldılır, nəticədə 300 manatdan gəlir vergisi tutulur. 500-200=300 300*14/100=42 (14% gəlir vergisi) 42 man gəlir vergisi.

Əməkhaqqından tutulan vergi hesablanarkən əlilliyi olan fiziki şəxslərin sadalanan vergi güzəştləri hüququ Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli, 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.4. bəndinə görə I və II dərəcə müharibə ilə əlaqədar əlilliyi olan şəxslər qeyd edilən vergi imtiyazlarından istifadə etmək üçün 1) I və II dərəcə müharibə ilə əlaqədar əlilliyi olan şəxs barədə əlilliyi olan şəxslərin reyestrindən çıxarışı; 2) Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vəsiqəsi; 3) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun və ya "DOST" mərkəzinin arayışını təqdim etməlidirlər.

Həmin sənədin 1.9-cu bəndinə gprə isə müharibə əlili olmayan I və II qrup əlillər isə güzəşt hüququndan istifadə etmək üçün: 1) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin və ya "DOST" mərkəzinin arayışını və; 2) tibbi-sosial ekspert komissiyasının qərarını təqdim etməlidirlər.

Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır.

Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları əmlak vergisini ödəməkdən azaddır.

## 3.2. Sığorta imtiyazları

Sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığortaolunanın əlilliyi müddətsiz müəyyən edildikdə həmin şəxslərə aylıq sığorta ödənişi məbləğləri cəm halda birdəfəlik ödənilir.

Sığorta olunanın əlilliyi, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu ilə əlaqədar pensiya, yaxud renta şəklində dövri sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan annuitet sığortası hüququ vardır. Annuitet – sığorta şirkəti ilə bağlanmış, müəyyən vaxtdan etibarən, məsələn təqaüdə çıxandan sonra fiziki şəxsə müntəzəm olaraq pul məbləği almaq hüququ verən razılıq və ya müqavilədir.

Sığorta hadisəsi nəticəsində sığorta olunanın və ya üçüncü şəxsin sağlamlığına vurulan zərərin əvəzi sığorta məbləğinin aşağıdakı nisbətlərində ödənilir:

- I dərəcə əlilliyə və ya 18 yaş tamam olana qədər sağlamlıq imkanlarının məhdudluğuna görə – 80 faiz
- II dərəcə əlilliyə və ya beş il müddətinə sağlamlıq imkanlarının məhdudluğuna görə – 60 faiz
- III dərəcə əlilliyə, iki il müddətinə və ya altı aydan iki ilə qədər müddətə sağlamlıq imkanlarının məhdudluğuna görə – 40 faiz

Müharibə əlillərinə aşağıda qeyd edilən birdəfəlik sığorta ödənişi nəzərdə tutulmuşdur:

- I dərəcə əlilliyi olan şəxslərə 8800 manat;
- II dərəcə əlilliyi olan şəxslərə 6600 manat;
- III dərəcə əlilliyi olan şəxslərə 4400 manat.

Əlilliyi müəyyən olunmuş şəxs əlillik dərəcəsi barədə Tibbi Sosial Ekspert Komissiyasının arayışını "Azərsığorta" Dövlət Sığorta Kommersiya Şirkətinə təqdim etdikdən 7 iş günü ərzində şəxsin bank hesabına ödəniş aparılır.

## 3.3. Reabilitasiya vasitələri ilə təchizat

Əlilliyi olan şəxslərin reabilitasiya vasitətələri ilə təchizatı ilə bağlı imtiyazları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"[6] ilə müəyyən olunub.

Reabilitasiya vasitələri ilə təmin edilmə "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nın əlavəsi ilə müəyyən olunmuş tibbi göstərişlər olduğu halda, AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi-sosial ekspert komissiyalarının qərarı

[6] http://www.e-qanun.az/framework/46499

əsasında Fərdi Reabilitasiya Proqramında müəyyənləşdirilməklə, minik avtomobilinə münasibətdə Sosial Xidmətlər Agentliyi tərəfindən, digər reabilitasiya vasitələrinə münasibətdə isə Agentliyin tabeliyindəki Protez-Ortopedik Bərpa Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən səyyar, ambulator və stasionar formada "Əlilliyi olan şəxslərin hüquqları haqqında" AR Qanununa uyğun olaraq həyata keçirilir.

Fərdi Reabilitasiya Proqramında reabilitasiya vasitələrinə dair müvafiq göstərişlərin müəyyən edildiyi tarixdən etibarən minik avtomobilləri Sosial Xidmətlər Agentliyi və ya Nazirliyin tabeliyindəki "DOST" mərkəzləri, digər reabilitasiya vasitələri isə Mərkəz və ya "DOST" mərkəzi tərəfindən Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında onlara təhvil verilir.

Yuxarıda göstərilən qurumlar Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə müvafiq qeydlər aparmaqla reabilitasiya vasitələrini Şəxsə və ya onun qanuni nümayəndəsinə şəxsiyyəti təsdiq edən sənəd və ya Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi, qanuni nümayəndəyə münasibətdə isə müvafiq etibarnamə əsasında təhvil verirlər.

Müraciət qəbul edilərkən və yaxud reabilitasiya vasitələrinin (minik avtomobili istisna olmaqla) hazırlanması üçün müvafiq ölçülərin götürülməsi zamanı ölçülərin götürülməsi və ya hazır reabilitasiya vasitəsinin alınması tarixi barədə Şəxsə və ya onun qanuni nümayəndəsinə məlumat verilir.

Şəxsin və ya onun qanuni nümayəndəsinin Mərkəzə gəlmək imkanı olmadıqda, reabilitasiya vasitəsi ona yaşayış yerində verilir.

## 3.4. Minik avtomobili və təkərli oturacaqla təminat

Minik avtomobili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın 1.5-ci bəndinə əsasən xüsusi səbəblə, habelə Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxslərə verilir.

Şəxs minik avtomobili və ya mühərrikli təkərli oturacaqla Nazirliyin Mərkəzləşdirilmiş Elektron iİnformasiya Sistemində (MEİS) Fərdi Reabilitasiya Proqramının tərtib edilmə ardıcıllığına görə formalaşan növbəliliyə uyğun olaraq təmin edilir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər minik avtomobili ilə növbədənkənar təmin olunurlar.

Minik avtomobili və ya mühərrikli təkərli oturacaq təyini barədə qərar verildiyi gün şəxsə dair məlumatlar MEİS-dəki növbəlilik siyahısına daxil edilir. Şəxs özünün növbəsi barədə məlumatları Nazirliyin e-sosial.az internet portalından əldə edə bilər.

Tibbi göstərişlərdə şəxsin həm minik avtomobilinə, həm də mühərrikli təkərli oturacağa ehtiyacına göstəriş olduğu halda, Şəxsin seçimi ilə onlardan biri təyin edilir.

Minik avtomobili verilmiş şəxs vəfat etdikdən sonra avtomobil onun ailəsinin mülkiyyətində qalır və vəfat etmiş şəxsin ailə üzvündən birinin adına keçirilməklə qeydiyyatdan çıxarılır.

Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri ilə bağlı daha ətraflı məlumat üçün bu linkə daxil olmaqla əldə etmək olar - **http://www.e-qanun.az/framework/46499.**

## 3.5. Reabilitasiya müalicəsi

Əlilliyi olan şəxslərin reabilitasiya müalicəsi AR Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"na[7] müvafiq qaydada Fərdi Reabilitasiya Proqramı əsasında təmin edilir.

[7] http://e-qanun.az/framework/47276

Fərdi Reabilitasiya Proqramı əlilliyi olan şəxsin tibbi, peşə-əmək, psixoloji-pedoqoji reabilitasiyası və sosial bacarıqların inkişafı ilə əlaqədar kompleks tədbirləri özündə əks etdirir.

Əlilliyin müəyyən edilməsi tarixindən 10 (on) iş günü müddətində Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi üzərindən əlilliyi olan şəxsin və (və ya) onun qanuni nümayəndəsinin əlaqə vasitələrinin birinə (telefon, elektron poçt və ya mobil tətbiqlər vasitəsilə və s.) Fərdi proqramın hazırlanması üçün vaxt və yer barədə məlumat göndərilir. Əlilliyi olan şəxsin qanuni nümayəndəsi olmadıqda, eləcə də qanuni nümayəndə və ya əlilliyi olan şəxs Fərdi proqramın hazırlanmasında iştirak edə bilməyəcəyi barədə TSEK-i məlumatlandırdıqda Fərdi proqram onun yaşadığı yerdə hazırlanır.

TSEK əlilliyi olan şəxsin tibbi, peşə-əmək, psixoloji-pedaqoji, ətraf mühit amillərinin, həyat fəaliyyətinin, mənzil-məişət şəraitinin kompleks qiymətləndirilməsini həyata keçirir, əmək fəaliyyətinə başlama və ya davametmə, eləcə də reabilitasiya potensialını dəyərləndirir, reabilitasiya nəticələrinin proqnozlaşdırılmasını, əlilliyi olan şəxsin itirilmiş funksiyalarının bərpasına yönəldilən reabilitasiya vasitələrini və xidmətini, o cümlədən sanatoriya-kurort müalicəsini müəyyənləşdirir. Bu zaman əlilliyi olan şəxsin ictimai və peşə fəaliyyəti, təhsili, maraq dairəsi və sosial statusu nəzərə alınır.

Fərdi proqram əlilliyin müəyyən edildiyi müddətə tərtib olunur. TSEK hər bir reabilitasiya tədbirinin həyata keçirilməsi müddətlərini Fərdi proqramın müddətindən çox olmamaqla müəyyən edir. Fərdi proqram hazırlanan zaman əlilliyi olan şəxsin və (və ya) onun qanuni nümayəndəsinin fikirləri nəzərə alınır.

Fərdi proqramla müəyyən edilmiş tədbirlərin effektivliyinin və ya hər hansı əlavə və dəyişikliklərin zəruriliyinin müəyyən olunması məqsədilə əlilliyi olan şəxslərə münasibətdə ildə bir dəfə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə isə altı ayda bir dəfə TSEK tərəfindən aidiyyəti üzrə tədbirlərə yenidən baxılır.

Əlilliyi olan şəxs və (və ya) onun qanuni nümayəndəsi müəyyənləşdirilmiş reabilitasiya tədbirləri ilə razı olmadığı təqdirdə "İnzibati icraat haqqında" AR Qanununa uyğun olaraq inzibati qaydada və ya məhkəməyə şikayət edə bilər.

## 3. 6. Dərman preparatları, tibbi xidmət və sanatoriya-kurort müalicəsi

Əlillərin dərman preparatları, tibbi xidmət və sanatoriya-kurort müalicəsi ilə bağlı təminatı məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası" ilə tənzimlənir.

- **Dərman preparatları ilə təminat**

Əlilliyi olan şəxslər yuxarıda qeyd edilən Qaydaya 2 nömrəli əlavədə müəyyən edilmiş "Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı"nda nəzərdə tutulmuş dərman preparatları ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə müəyyən etdikləri siyahıda nəzərdə tutulan dövlət müalicə-profilaktika müəssisələrində təşkil edilmiş aptek məntəqələri vasitəsilə təmin olunurlar.

Əlilliyi olan şəxslərə dərman preparatları tibb müəssisənin resepti əsasında verilir. Əlilliyi olan şəxslər və ya onların qanuni nümayəndəsi şəxsiyyəti təsdiq edən sənədlə tibb müəssisəsinə müraciət etdikləri gün reseptlə təmin edilirlər.

- **Tibbi xidmətlərlə təminat**

Dövlət tibb müəssisələri və reabilitasiya müəssisələrində AR Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə nəzərdə tutulan tibbi xidmətlər əlilliyi olan şəxslərə icbari tibbi sığorta vəsaitləri hesabına göstərilir.

Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslərə yuxarıda qeyd edilən və AR Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 321 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növləri"ndə nəzərdə tutulmuş tibbi xidmətlərdən əlavə digər tibbi xidmətlər müvafiq olaraq ƏƏSMN-nin, Səhiyyə Nazirliyinin və İcbari

Tibbi Sığorta üzrə Dövlət Agentliyinin göndərişləri əsasında dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

- **Sanatoriya-kurort müalicəsi ilə təminat**

İşləməyən əlilliyi olan şəxslər və pensiya almaq hüququ olan hərbi qulluqçular istisna olmaqla əlilliyi olan şəxslər Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tibbi sosial ekspert komissiyası tərəfindən tərtib edilmiş Fərdi Reabilitasiya Proqramında nəzərdə tutulduğu halda Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən ölkə hüdudları daxilində müalicə üçün sanatoriya-kurort putyovkası ilə pulsuz təmin olunurlar.

İşləməyən əlilliyi olan şəxslər dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına, dövlət orqanlarında (qurumlarında), mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda işləyən əlilliyi olan şəxslər Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun vəsaiti hesabına və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər isə təqsirkar işəgötürənin vəsaiti hesabına işəgötürən tərəfindən sanatoriya-kurort putyovkası ilə təmin olunurlar.

Pensiya almaq hüququ olan hərbi qulluqçuların sanatoriya-kurort putyovkası ilə təmin olunması AR Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydası" ilə tənzimlənir.

Sanatoriya-kurort putyovkası (yollayışı) ildə bir dəfədən çox olmamaqla növbəlilik qaydasında verilir.

## 3. 7. Hüquqpozma törətmiş əlil şəxslərə edilən güzəştlər

- Zərər vurmuş fiziki şəxsin əmlak vəziyyəti əlilliklə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu ilə əlaqədar olaraq zərərin əvəzinin ödənilməsinin təyin edildiyi məqamdakı vəziyyətə nisbətən pisləşmişdirsə, onun tələbi ilə məhkəmə zərərin əvəzinin ödənilməsi miqdarını azalda bilər, amma zərərin qəsdən törədilmiş hərəkətlərlə vurulduğu hallar istisna təşkil edir.
- İslah işləri I dərəcə əlilliyi olan şəxslərə təyin edilmir.
- Himayəsində Azərbaycan Respublikasının vətəndaşı olan yetkinlik yaşına çatmayan uşağı, fəaliyyət qabiliyyəti olmayan və ya I dərəcə əlilliyi olan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növü şamil edilmir.
- Mühafizə olunan obyektə qrup halında və ya silah işlətməklə basqın edildiyi, o cümlədən silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla əlilliyi o cümlədən sağlamlıq imkanlarının məhdudluğu olan şəxslərə fiziki qüvvənin və ya xüsusi vasitələrin tətbiqi qadağandır.
- Cəza çəkməkdən azad edilmiş I və II dərəcə əlilliyi olan şəxslər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial xidmət müəssisələrinə göndərilirlər.
- I və ya II dərəcə əlilliyi olan məhkumların bağlama, sovqat və banderol almalarına məhdudiyyət qoyulmur.

# BÖLMƏ 4. ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ QULLUQ EDƏN ŞƏXSLƏRƏ VERİLƏN GÜZƏŞTLƏR

Bu bölmədə əlilliyi olan şəxslərə qulluq edən şəxslərə verilən ünvanlı sosial yardım, əmək münasibətləri və vergilərə aid güzəştlər əhatə olunur.

## 4.1. Ünvanlı sosial yardım hüququ

Aşağıdakı şəxslərin ünvanlı sosial yardım almaq hüququ vardır:

- birinci dərəcə əlilliyi olan şəxsə qulluq edən ailə üzvü
- sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq edən ailə üzvü

## 4.2. Əmək münasibətləri ilə bağlı güzəştlər

Sağlamlıq imkanları məhdud uşağı olan qadınlara tibbi rəy əsasında ərizə ilə müraciət etdikdə, natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən edilə bilər.

Sağlamlıq imkanları məhdud uşağı olan qadınlara 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

Öhdəsində sağlamlıq imkanları məhdud 18 yaşınadək və ya I dərəcə əlilliyi olan ailə üzvü olan işçilərin məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində aşağıdakı əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır:

- müəssisə ləğv edildikdə;
- işçilərin sayı və ya ştatları ixtisar edildikdə;
- peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə müvafiq qərar qəbul edildikdə;

- işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud Əmək Məcəlləsinin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda;
- sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;
- dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda.

Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağı olan işçilərə ödənişsiz məzuniyyət - 14 təqvim gününədək.

## 4.3. Vergi güzəştləri

Daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. (Məsələn: aylıq gəlir 500 manatdır 100 manat məbləğində azaldılır 400 manatdan gəlir vergisi çıxılır. 500-100= 400 400*14/100= 56 . 56 manat gəlir vergisi.)

Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli, 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.13 bəndinin tələblərinə əsasən qeyd edilən vergi güzəşti üçün aşağıdakılar tələb olunur:

- daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum;
- himayədə olma faktı barədə məhkəmə orqanlarının qərarı:
- ər və arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əmək kitabçasının olduğu işəgötürənin arayışı;

- uşağın doğulması haqqında şəhadətnamənin surəti:
- birgə yaşamaq haqqında mənzil-kommunal istismar sahələrinin yaxud icra hakimiyyəti nümayəndəliklərinin arayışları;
- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumunun arayışı;
- Övladlığa götürmə barədə məhkəmə qərarının surəti;

Təhsil müəssisələrinin, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin mənfəəti – mənfəətin dividentlərin ödənilməsinə yönəldilən hissəsi istisna olmaqla vergidən azaddır. (Məsələn: xüsusi təhsil müəssisinin mənfəəti 1000 manatdır. Təsisçiyə 500 manat divident ödəniləcək və bu məbləğdən 20 % mənfəət vergisi tutulur. 500- 500*20/100= 400. Dividentin ödənilməsinə yönəldilməyən 500 manatdan isə vergi tutulmur.)

Əlilliyi olan şəxslərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. (Məsələn: Əlilliyi olan şəxslərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisəsinin aylıq mənfəəti 1000 manatdır. 20% mənfəət vergisi 50% azaldılaraq 10 % məbləğində hesablanır. Yəni 1000 manat mənfəətdən 200 manat deyil 100 manat mənfəət vergisi tutulur. 1000*10/100= 100.)

Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünü idarəetmə orqanları, Azərbaycan Respublikasının Mərkəzi Bankı və onun qurumları, dövlətin adından yaradılan publik hüquqi şəxslər (sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan əmlaka görə ödənilməli əmlak vergisi istisna olmaqla), dövlət fondları və əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddır.

Sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum, ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaqlar üçün xüsusi təhsil müəssisələrinin, istedadlı uşaqlar üçün təhsil müəssisələrinin, eləcə də yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin əmək haqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr olunur.

Yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona qanunvericilikdə müəyyən edilən qaydada sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi fasiləsiz iş stajından asılı olmayaraq, orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.

Sağlamlıq imkanları məhdud şəxslərin valideynlərinin və ya digər qanuni nümayəndələrinin psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən aparılan müayinədə və müayinə nəticələrinin müzakirəsində iştirak etmək hüquqları vardır.

Paralimpiya, Deflimpiya, Xüsusi Olimpiya komitələri, onların yerli şöbələri, idman klubları qanunvericiliyə uyğun olaraq yerləşdikləri dövlət mülkiyyətində olan binalardan və digər obyektlərdən pulsuz istifadə edirlər.

Ər və arvad bir-birinə maddi cəhətdən kömək göstərilməsindən imtina etdikdə və ər-arvad arasında alimentin ödənilməsi barədə saziş olmadıqda 18 yaşından yuxarı I dərəcə əlilliyi olan ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad buna zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

Əlilliyi olan, o cümlədən sağlamlıq imkanları məhdud olan, uzun müddət müalicəyə ehtiyacı olan, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olan, habelə onların arasından olan, ciddi tərbiyə şəraitinə ehtiyacı olan təhsilalanların təhsilini, müalicəsini, sosial adaptasiyasını və ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi peşə təhsili müəssisələrində, o cümlədən yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin vəzifə maaşlarına əlavələr olunur.

# BÖLMƏ 5. SOSİAL ÖDƏNİŞLƏR

Bu bölmədə əlilliyi olan şəxslər üçün nəzərdə tutulan sosial ödənişlərin növləri, o cümlədən sosial müavinət və pensiyaların təyin edilmə, məbləğin hesablanması qaydaları, müddətlər haqqında detallı məlumatlar yer almışdır.

## 5.1. Sosial ödənişin növləri

Əlilliyi olan şəxslər üçün aşağıdakı sosial ödənişlər nəzərdə tutulub:

- Əlilliyə görə əmək pensiyası
- Əlilliyə görə sosial müavinət
- Prezident təqaüdü

Əmək pensiyası şəxsin (sığortaolunanın) xəstəlik və ya xəsarət nəticəsində yaranan əqli və ya fiziki qüsurlara görə əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir.

Sosial müavinət şəxsin əlilliyə görə əmək pensiyası hüququ yaranmadıqda qanunvericiliklə nəzərdə tutulmuş hallarda təyin edilir.

Hər iki sosial ödəniş xəstəlik və ya xəsarət nəticəsində əqli və ya fiziki əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir.

Prezident təqaüdü müəyyən koteqoriya əlillər üçün nəzərdə tutulub.

## 5.2. Əlilliyə görə əmək pensiyası

Əlilliyə görə əmək pensiyası 7 fevral 2006-cı il tarixli "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu[8] ilə tənzimlənir.

Əlilliyə görə əmək pensiyasının təyin edilməsi zamanı əlillik dərəcələri, əlilliyin səbəbləri, habelə onların başvermə müddəti Nazirlər Kabinetinin

[8] https://e-qanun.az/framework/11566

2022-ci il 13 may tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları" ilə müyyən edilir.

Qanuna görə əlilliyə görə əmək pensiyası - sığortaolunanın xəstəlik və ya xəsarət nəticəsində yaranan əqli və ya fiziki qüsurlara görə əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir.

Əlilliyə görə əmək penisyalarının iki növü fərqləndirlir:

1. Ümumi əsaslarla əlilliyə görə əmək penisyaları;
2. Hərbi qulluqçular üçün əlilliyə görə əmək penisyaları.

Hərbi qulluqçular (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) sırasından olan əlilliyi olan şəxslər aşağıdakı kateqoriyalara bölünürlər:

1. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər—əlillik hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən alınmış xəsarət (yaralanma, travma, kontuziya), yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı xəstəlik nəticəsində üz verərsə;
2. Hərbi qulluqçular sırasından digər əlilliyi olan şəxslər—əlillik hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə bağlı olmayan bədbəxt hadisə nəticəsində alınmış xəsarət (yaralanma, travma, kontuziya), yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı olmayan xəstəlik nəticəsində üz verərsə.

Müddətli həqiqi hərbi (alternativ) xidmətdə olan şəxslərin əlilliyi həqiqi hərbi və ya alternativ xidmət vəzifələrini yerinə yetirərkən yaralanma, kontuziya, zədələnmə nəticəsində, yaxud cəbhədə olmaqla və ya döyüş əməliyyatı aparan ölkədə hərbi xidmət borcunun yerinə yetirilməsi ilə bağlı xəstəlik nəticəsində üz verərsə, onlar müharibə ilə əlaqədar əlilliyi olan şəxs hesab edilirlər.

- **Təyin edilmə şərtləri**

Ümumi əsaslarla əlilliyə görə əmək pensiyası I dərəcə əlilliyi olan şəxslərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş

dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. II və III dərəcə əlilliyi olan şəxslərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə, yuxarıda göstərilən sığorta stajı olduqda təyin edilir.

Hərbi qulluqçulara, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından müharibə ilə əlaqədar I dərəcə əlilliyi olan şəxslərə (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, lakin xidmət dövründə alınmış xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində üz verdikdə təyin edilir.

- **Təyin edilmə qaydası**

Əlilliyə görə əmək pensiyası, buna hüququ olan şəxsin müraciəti əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəyyən etdiyi əlillik dövrü üçün, pensiya yaşına çatmış şəxslərə isə ömürlük təyin edilir.

Əlilliyə görə əmək pensiyası I dərəcə əlilliyi olan şəxslərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. II və III dərəcə əlilliyi olan şəxslərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə, bu maddədə göstərilən sığorta stajı olduqda təyin edilir.

Hərbi qulluqçulara, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından müharibə ilə əlaqədar I dərəcə əlilliyi olan şəxslərə (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular və digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra, lakin xidmət dövründə alınmış xəstəlik və yaxud xəsarət (yaralanma, travma, kontuziya) nəticəsində üz verdikdə təyin edilir.

Şəxsin əlilliyinin qiymətləndirilməsi tibbi-sosial ekspertiza müayinəsinə göndəriş vermək hüququ olan tibb müəssisələrinin həkim-məsləhət komissiyaları və ya hərbi-həkim komissiyaları tərəfindən "Tibbi-sosial ekspert komissiyasına göndərişlərin reyestri"nə elektron sənəd formasında daxil edilmiş Tibbi-sosial ekspertiza müayinəsinə göndəriş əsasında aparılır.

Əlillik müəyyən edildikdən sonra əlilliyə görə əmək pensiyası avtomatlaşdırılmış qaydada təyin olunur. Bank kartı avtomatik olaraq sifariş edilir.

- **Pensiyanın məbləği**

Əlilliyə görə əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında gözlənilən pensiya ödənişi müddətinin aylarının sayı sığorta davamiyyəti əmsalına vurulur. Sığorta davamiyyəti əmsalı əlilliyə görə əmək pensiyası üçün tələb olunan sığorta stajı aylarının sayının 200-ə olan nisbəti şəklində müəyyənləşdirilir.

Əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin məbləği aşağıdakı düsturla müəyyən edilir:

$$SH = PSK/(TxK)$$

burada:
SH - əlilliyə görə əmək pensiyasının sığorta hissəsidir;
PSK - sığortaolunanın fərdi hesabının sığorta hissəsində əlilliyə görə əmək pensiyasının təyin olunduğu tarixə qeydə alınmış pensiya kapitalıdır;
T - gözlənilən pensiya ödənişi müddətinin aylarının sayıdır;
K - sığorta davamiyyəti əmsalıdır.

Əlilliyə görə əmək pensiyasının məbləği aşağıdakı düsturla müəyyən edilir:
P = SH+YH, burada:
P - əlilliyə görə əmək pensiyasıdır;
SH - əlilliyə görə əmək pensiyasının sığorta hissəsidir;
YH - əlilliyə görə əmək pensiyasının yığım hissəsidir.

- **Pensiyanın hesablanması**

Əlilliyə görə pensiya məbləğini aşağıdakı linkə daxil olaraq hesablamaq mümkündür: https://pensiya.az/category/8/elilliye-gore-pensiya.html

## 5.3. Əlilliyə görə sosial müavinət

Əlilliyə görə sosial müavinətlə bağlı münasibətlər əsasən 7 fevral 2006-cı il tarixli "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasinin Qanunu[9] ilə tənzimlənir.

Əlilliyə görə sosial müavinət 18 yaşından yuxarı əlilliyi olan şəxslərə əmək pensiyası hüququ olmadıqda təyin edilir.

Əlilliyə görə müavinət əlillik müddətinə təyin edilir. Şəxs əmək pensiyası hüququ qazandıqda müavinət əmək pensiyası ilə əvəz edilir.

Əlilliyi olan şəxsin aylıq müavinətlərdən bir neçəsini almaq hüququ olduqda öz arzusuna əsasən bir növ aylıq müavinət seçə bilər. Yəni, əgər əlilliyi olan şəxsin: 1) dövlət qulluqçularına ömürlük müavinət; 2) AR Prezidenti tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət; 3) ailə başçısını itirməyə görə müavinət və 4) beşdən çox uşağa görə qadınlara müavinət almaq hüququ yaranıbsa, qeyd olunan müavinətlərdən yalnız birini seçmək hüququ vardır.

Burada yeganə istisna hal övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa görə müavinətlə bağlıdır. Əlilliyi olan şəxsin bu müavinəti almaq hüququ yarandıqda ona hər iki müavinət təyin edilir.

- **Təyin edilmə şərtləri**

Müavinət şəxsin yaşayış yeri üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təyin edilir və ödənilir.

Müavinətlərin təyin edilməsi ilə bağlı elektron xidmətlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə həyata keçirilir.

[9] https://e-qanun.az/framework/11508

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə zəruri sənədlərlə birlikdə ərizənin təqdim edildiyi gün müavinət təyin olunması üçün müraciət edilən gün hesab olunur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən ən geci 10 gün müddətində qərar qəbul olunur.

Komissiya tərəfindən təyinatla bağlı imtina qərarı qəbul edildikdə, 5 gün müddətində səbəblər göstərilməklə müraciət edən şəxsə rəsmi məlumat verilir.

- **Tələb olunan sənədlər**

Müavinət təyin olunması üçün aşağıdakı sənədlər tələb olunur:

1. şəxsin ailə vəziyyətini təsdiq edən sənəd (ailə tərkibi haqqında yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı);
2. ərizə nümayəndə vasitəsilə təqdim edildikdə, etibarnamə və ya qəyyum (himayəçi) olmasını təsdiq edən sənədin surəti;
3. hərbi həkim komissiyasının qərarının surəti.

- **Müavinətin məbləği**

"Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 20 dekabr 2021-ci il tarixli Fərmana əsasən əlillik «ümumi xəstəlik», hərbi xidmət dövründə xəstələnmə», əmək zədəsi və peşə xəstəliyi», «hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar», «Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar», "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar", "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və ya "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" səbəbindən baş verdikdə 2022-ci ilin yanvarın 1-dən aşağıdakə məbləğlərdə təyin edilir:

I qrup əlillərə — 220 manat

II qrup əlillərə — 180 manat

III qrup əlillərə — 120 manat

## 5.4. Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinət

- **Müddəti və məbləği**

Müavinət 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğu müddətinə təyin edilir. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 20 dekabr 2021-ci il tarixli Fərmana əsasən 2022-ci il yanvarın 1-dən müavinət 200 manat məbləğində müəyyənləşdirilib.

- **Tələb olunan sənədlər**

1. müavinət, təqaüd və kompensasiyanın təyin olunması üçün şəxsin ailə vəziyyətini təsdiq edən sənəd (ailə tərkibi haqqında yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı);

2. ərizə nümayəndə vasitəsilə təqdim edildikdə, etibarnamə və ya qəyyum (himayəçi) olmasını təsdiq edən sənədin surəti.

## 5.5. Çernobıl AES qəzası nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə və radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərin qəza nəticəsində sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş 18 yaşınadək uşaqlarına hər il müalicə üçün müavinət

Bu müavinət şəxsin radiasiya qəzası nəticəsində əlilliyinin müəyyən edildiyini və Çernobıl AES qəzası nəticəsində zərər çəkmiş şəxslərin 18 yaşınadək uşaqlarının qəza nəticəsində sağlamlıq imkanlarının

məhdudluğunu təsdiq edən ƏƏSMN tərəfindən qəbul edilmiş qərar təqdim edildikdə təyin edilir.

- **Tələb olunan sənədlər**

1. Şəxsiyyət vəsiqəsi
2. Şəxsin radiasiya (Çernobıl AES) qəzasının ləğvində iştirak etməsini və həmin qəzadan zərər çəkməsini təsdiq edən əlillik haqqında tibbi-sosial ekspert komissiyasının müayinə aktından çıxarış
3. Çernobıl AES qəzası iştirakçılarının sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağının tibbi-sosial ekspert komisiyyasının müayinə aktından çıxarış
4. Çernobıl AES qəzasının ləğvində iştirak etmiş şəxslərin qəzadan sonra doğulmuş uşaqlarının sağlamlıq imkanlarının məhdudluğunun qəza ilə əlaqədar olmasına dair Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İdarələrarası Ekspert Şurasının rəyi

- **Müddəti və məbləği**

Müavinət hər il müalicə üçün müraciət edilən aydan sonrakı ayın 1-dən ildə bir dəfə ödənilməklə əlillik, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müddətinə təyin edilir.

Müvinətin məbləği 237 manat müəyyən edilmişdir.

## 5. 6. Dövlət qulluqçusuna ömürlük müavinət

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə mindiyi 2001-ci il sentyabrın 1-dən icra, qanunvericilik və məhkəmə hakimiyyətləri orqanlarının aparatlarında dövlət qulluğunu davam etdirən və ya yeni qəbul edilən, bu Qanuna uyğun olaraq inzibati və yardımçı vəzifəni tutan, müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə dövlət orqanından könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində "Dövlət qulluğu haqqında" Azərbaycan

Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçusunun müavinət almaq hüququ vardır.

Müavinət almaq hüququ olan şəxs heç bir müddət məhdudiyyəti olmadan istənilən vaxt müavinətin təyin edilməsi üçün müvafiq təsdiqedici sənədlər (arayışlar) təqdim etməklə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun aidiyyəti müvafiq yerli qurumuna və ya "DOST" mərkəzinə müraciət edə bilər. Müavinət təyin edən orqan tərəfindən müavinəti almaq üçün edilən müraciətə 10 iş günü ərzində baxılır.

- **Tələb olunan sənədlər**

Müavinətin təyin edilməsi üçün şəxsin ərizəsi ilə birlikdə Fondun müvafiq yerli qurumuna və ya "DOST" mərkəzinə aşağıdakı təsdiqedici sənədlər təqdim edilməlidir:

1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin notariat qaydada təsdiq edilmiş surəti;
2. əmək kitabçasından çıxarış və ya əmək kitabçasının notariat qaydada təsdiq edilmiş surəti;
3. əlillik, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu barədə Tibbi Sosial Ekspert Komissiyasının arayışı (əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxdıqda);
4. dövlət qulluqçusunun məvacibi barədə dövlət orqanının arayışı.

- **Müddəti və məbləği**

Müavinət ömürlük təyin edilir. Müavinət dövlət qulluqçusunun yaşayış yeri üzrə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun müvafiq yerli qurumu tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına hər ay ödənilir. Müavinət müavinət alan şəxsin arzusu ilə onun və ya müvafiq qaydada etibarnamə verilmiş şəxsin Azərbaycan Respublikasında fəaliyyət göstərən bankdakı hesabına köçürülür. Müavinəti almaq

hüququna malik olan şəxsə müraciətdən əvvəlki 3 aydan çox olmayan müddət üçün (işdən çıxdığı gündən tez olmayaraq) müavinət ödənilir

Müavinətin məbləği dövlət qulluqçusunun axırıncı əsas vəzifəsi üzrə, işdən çıxdığı aydan əvvəlki 12 təqvim ayının orta aylıq məvacibinə əsasən müəyyən edilir. Bu halda 12 təqvim ayından az dövlət qulluğunda çalışmış dövlət qulluqçusuna müavinət faktiki qulluq edilmiş tam təqvim aylarına əsasən hesablanır. Dövlət məvacibi vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən (dövlət qulluqçusunun ixtisas dərəcəsinə, qulluq stajına və s. görə verilən əlavələr) ibarətdir. Aylıq müavinətin miqdarı dövlət qulluqçusunun axırıncı əsas vəzifəsi üzrə bu Qaydaya əsasən hesablanan dövlət məvacibinin 15 faizini təşkil edir.

## 5. 7. Skleroz xəstəliyinə tutulmuş şəxslərə sosial müavinət

“Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasinin Qanununa əsasən əlilliyi müəyyən edilmiş və əmək pensiyası almaq hüququ olmayan dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sosial müavinət almaq hüququ vardır.

Dağınıq skleroz xəstəliyinə tutulmuş işçilərə əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət iş stajından asılı olmayaraq orta aylıq əməkhaqqının məbləği əsasında hesablanır.

## 5. 8. Onkoloji xəstələrə sosial müavinət

“Onkoloji yardım haqqında” Azərbaycan Respublikasinin Qanunun 9-cu maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş və əmək pensiyası almaq hüququ olmayan onkoloji xəstələrin müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada sosial müavinət almaq hüququ vardır.

Onkoloji xəstələr üçün əlilliyin müəyyən olunması meyarlarına əsasən ilk növbədə əlilliyin dərəcəsi və səbəbi müəyyən olunmalıdır. Əlilliyin

müəyyən olunması ücün səhiyyə müəssisəsi tərəfindən göndəriş (forma 88) alınmalı və Tibbi Sosial Ekspert Komissiyasına (TSEK) müraciət edilməlidir. Əlilliyə görə sosial müavinət təyin olunması üçün şəxs qeydiyyatda olduğu Əhalinin Sosial Müdafiə Mərkəzinə ərizə ilə müraciət etməlidir. Ərizəyə  əlavə olunur: şəxsiyyət vəsiqəsinin surəti, TSEK arayışı. Ərizə ilə müraciət edildikdən sonra əlilliyin səbəbi və dərəcəsi müəyyən edildiyi tarixdən sosial müavinət təyin olunur və ödənilir.

# BÖLMƏ 6. PREZİDENT TƏQAÜDLƏRİ

Bu bölmədə müəyyən qrup əlilliyi olan şəxslərə şamil olunan prezident təqaüdləri, onların verilmə qaydaları və tələb olunan olunan sənədlər haqqında məlumatlar təqdim edilir.

Prezident təqaüdü yalnız müəyyən koteqoriyadan olan əlillər üçün müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

## 6.1. Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü

"Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanında edilmiş dəyişiklikliyə əsasən 2021-ci il yanvarın 1-dən təqaüdün aylıq məbləği aşağıdakı kimi müəyyən edilib:

I qrup əlillərə - 400 manat;

II qrup əlillərə - 350 manat;

III qrup əlillərə - 300 manat

- **Tələb olunan sənədlər:**

1. müavinət, təqaüd və kompensasiyanın təyin olunması üçün şəxsin ailə vəziyyətini təsdiq edən sənəd (ailə tərkibi haqqında yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı);
2. ərizə nümayəndə vasitəsilə təqdim edildikdə, etibarnamə və ya qəyyum (himayəçi) olmasını təsdiq edən sənədin surəti;
3. əlillik barədə tibbi-sosial ekspert komissiyasının müayinə aktından çıxarış;

4. Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulanların müharibə əlilliyi vəsiqəsinin surəti.

**1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər üzrə tələb olunan sənədlər:**

1. müavinət, təqaüd və kompensasiyanın təyin olunması üçün şəxsin ailə vəziyyətini təsdiq edən sənəd (ailə tərkibi haqqında yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı);
2. ərizə nümayəndə vasitəsilə təqdim edildikdə, etibarnamə və ya qəyyum (himayəçi) olmasını təsdiq edən sənədin surəti;
3. əlillik barədə tibbi-sosial ekspert komissiyasının müayinə aktından çıxarış.

## 6.2. Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü

"Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanında edilmiş dəyişiklikliyə əsasən 2021-ci il yanvarın 1-dən təqaüdün aylıq məbləği 130 manat məbləğində müəyyən edilib.

- **Tələb olunan sənədlər:**

müavinət, təqaüd və kompensasiyanın təyin olunması üçün şəxsin ailə vəziyyətini təsdiq edən sənəd (ailə tərkibi haqqında yerli icra hakimiyyəti

başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı);

1. ərizə nümayəndə vasitəsilə təqdim edildikdə, etibarnamə və ya qəyyum (himayəçi) olmasını təsdiq edən sənədin surəti;
2. əlillik barədə tibbi-sosial ekspert komissiyasının müayinə aktından çıxarış.

## 6.3. Ümumi səbəblərdən I dərəcə gözdən əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü

Ümumi səbəblərdən I dərəcə gözdən əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 31 dekabr 2020-ci il tarixli Fərmanı ilə 1 yanvar 2021-ci il tarixdən təqaüdün aylıq məbləği 210 manat müəyyən olunub.

Demokratiyanı Öyrənmə İctimai Birliyi

*Əlilliyi olan şəxslər: hüquqlar, imtiyazlar, güzəştlər*

Bu vəsait 00 Nəşriyyatda çap edilmişdir.
Tiraj: 1000 nüsxə

